BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№3 Təbiət elmləri seriyası 2010*

## COĞRAFİYA

# TEHRAN ŞƏHƏRİNİN ƏHALİSİNİN DİNAMİKASI

**V.A.ƏFƏNDİYEV, RƏHİM REZAİ**
***Bakı Dövlət Universiteti***
***vefendiyev@bsu.az***

*Məqalədə İran İslam Respublikasının ən böyük aqlomerasiyası – Tehranın əhalisinin dinamikası təhlil olunur. Tehran şəhərinin əhalisi yüksək surətlə artır, bu da onun paytaxt funksiyaları ilə bağlıdır. Artıq XXI əsrin əvvəllərində onun əhalisi 13 mln. nəfəri keçmişdir. Tehran şəhərinin əhalisinin artması qonşu şəhərlərin birləşməsinə və doqquz şəhərdən ibarət aqlomerasiyanın yaranmasına gətirib çıxarıb. Məqalədə əhalinin dinamikası ilə yanaşı miqrasiya prosesləri və yaş-cins tərkibinə də baxılır.*

Ötən əsrin son illərində dünyada qlobal dəyişikliklər baş verdi. Bunların İran cəmiyyətinə də təsiri oldu. Bu dövrdə İranda əhalinin intensiv artmasını qeyd etmək lazımdı. Böyük və kiçik şəhərlərin urbanizasiyası başlandı.

Urbanizasiya prosesi əvvəllər yalnız Tehran aqlomerasiyasında açıq şəkildə izlənilirdi. Verilən məlumata görə 1 yanvar 1996-cı ildə Tehranın əhalisi 13.35 mln. nəfər təşkil edirdi. Ancaq son illər ərzində əhalinin sayı 3 milyondan çox artmışdı. Hal-hazırda Tehran şəhərində aydın şəkildə əhalinin artması müşahidə olunur.

Tehranda əhalinin qocalması prosesi çox ləng davam edir. Bu ölkənin demoqrafik siyasəti ilə bağlıdır. Hələ 1970-ci ildə İranda yaşlı nəslin sayı nisbətən çox idi. Lakin 1990-cı illərdə baş tutan "demoqrafik dalğa" gənc nəslin artımına təkan verdi.

1966-cı ildən sonra, yəni 1976-cı ildən başlayaraq Tehran ərazisi daha da böyümüşdür. 1986-1996-cı illər ərzində Tehranın əhalisinin illik artım əmsalı
2.7% olmuşdur. Qeyd olunan dövrdə ən çox orta illik artım əmsalı Şəhriyar, ən az orta illik artım əmsalı isə Tehran şəhərinin payına düşür (3).

2006-cı ilin statistikasına görə Tehran aqlomerasiyasının əhalisi 13.413.348 nəfər olmuşdur. Qeyd olunan ildə Tehran aqlomerasiyasında 53 şəhər olmuşdur. 1996-cı illə müqayisədə bu 47% artım deməkdir. Əhali bu dövrlə müqayisədə 2.6% artmışdır (2).

Əhali artımı bütün ölkə üzrə 2006-cı ildə 1.61% təşkil edirdisə, Tehran şəhəri üçün bu göstərici 2.61% təşkil edirdi və Tehranda artım bütün ölkə ilə müqayisədə 1% çox idi. Şəhər əhlisinin artım sayı bütün ölkə üzrə 2.7%-idisə, Tehran üzrə bu göstərici 3.2% təşkil edirdi. Tehranətrafı şəhərlərin əhalisinin artımı isə ildə 10% təşkil edirdi. 2006-cı ildə ölkə üzrə hər kv km-ə düşən əhali 45 nəfər olmuşdur. Tehranda isə hər kv km-ə 713 nəfər əhali düşürdü. Deməli, Tehranda əhali sıxlığı bütün ölkə ilə müqayisədə 20 dəfə çoxdur (5).

2006-cı ildə Tehran aqlomerasiyasının 53 şəhəri arasında ən çox əhalisi olan şəhər Tehran, ən az əhalisi olan şəhər isə 1700 nəfərlə Ərcmənd olmuşdur.

Proqnozlara görə, 2016-cı ilə qədər aqlomerasiyanın bəzi şəhərlərinin əhalisi hiss olunacaq dərəcədə artacaq. Əhalisinin sayı 200.000-dən çox olan şəhərlərin sayı daha sürətlə artacaq. 1996-cı illə müqayisədə 2006-cı ildə əhalisinin sayı 150.000-dən çox olan şəhərlər hiss olunacaq dərəcədə artmışdır. Sosial təbəqələri əks etdirən xəritələrə əsasən əyalətdə milyon nəfərlik və 150.000 nəfərdən çox əhalisi olan şəhərlərin artacağı proqnozlaşdırılır (1).

**Cins göstəricisi.** Əhali və yaşayış yerləri ilə bağlı ilk ümumdövlət statistik hesablamaları 1956-cı ilə qədər aiddir. Bu statistikanın nəticələrinə görə Tehran əhalisi 1.512.072 nəfərə çatırdı (799.360 nəfər kişi, 712.722 nəfər qadın).

Əhali sıxlığı hər kv km-ə 150 nəfər təşkil edir. 1966-cı ilin statistik nəticələrinə görə Tehran əhalisinin sayı 2.719.730 nəfər olmuşdur ki, bunun da 1.425.606 nəfərini kişilər, 1.294.124 nəfərini qadınlar təşkil edirdi. Deməli, hər 100 qadına 110 nəfər kişi düşür. Həmin il ailə üzvlərinin sayı orta hesabla 4.7 nəfər olmuşdur. 1966-cı ildən başlayaraq 1976-cı ilə qədər Tehran ərazisi böyümüş, Təcriş və Rey şəhərlərini də əhatə etmişdir (4).

Artıq 1976-cı ildən Böyük Tehran adlanan bu şəhərin əhalisi 4.530.223 nəfər olmuşdur. Bu əhalinin 2.382.641 nəfərini kişilər, 2.47.582 nəfərini isə qadınlar təşkil etmişdir. Deməli, cins göstəricisinə görə hər 100 qadına 111 kişi düşür. Şəhərin ailə üzvlərinin sayı orta hesabla 4.5 nəfər təşkil etmişdir. Hər kv km-ə 96 nəfər düşür. 1986-cı il statistikasına görə Tehran əhalisi 6.022.079 nəfər, ailələrin sayı 1.275.342 olmuşdur. Bu dövrdə hər 105 qadına 100 kişi düşür. 1996-cı ildə şəhərin əhalisinin sayı 6.75.848 nəfər olmuşdur ki, bunun da 3.468.946 nəfərini kişilər, 3.289.899 nəfərini qadınlar təşkil etmişdir. Nəticədə bu zaman hər 105 qadına 100 kişi düşür. Əhalinin 30.74%-ni yaşı 15-dən aşağı olanlar, 64.18%-ni yaşı 15-dən 64-ədək olanlar, 4.74%-ni isə 65 və ondan yuxarı olanlar təşkil etmişdir. Qalan hissəsinin sayı müəyyən edilməmişdir (2).

2006-cı ilin statistikasına görə Tehranın əhalisi 7.797.520 nəfər (3.983.080 nəfər kişi, 3.814.440 nəfər qadın) olmuşdur. Bu dövrdə Tehranda 22 rayon olmuşdur. Dörd rayonun əhalisi (819.921 nəfər) ən az olan rayon kimi qeydə alınmışdır.

**Orta yaş həddi.** 1979-cu il inqilabından sonra dövlət əhalinin sayını azaltmaq siyasəti yürütməyə başladı. Məhz buna görə də, Tehran əhalisinin yaş qrupları arasında ciddi fərq yarandı. Hamiləliyin qarşısının alınması ilə 1986-1996-cı illər ərzində Tehran əyaləti üzrə yaşı 15-dən aşağı olan əhalinin faiz göstəricisi aşağı düşdü (1).

1986-cı ildə Tehran əhalisinin 39.4%-nin yaşı 15-dən aşağı, 57.3%-nin yaşı 15-64 arası, 3.1%-nin yaşı isə 65-dən yuxarı olmuşdur. Əsas yaş qruplarındakı dəyişiklərdə yaşı 1-dən az və 1-5 arası olan əhalinin sayının azaldığını göstərir. 1986-1996-cı illər statistikasına görə qeyd olunan iki yaş qrupunun artım əmsalı müvafik illər üzrə -5.33 və -3.51 olmuşdur. 1996-cı ildə Tehran əhalisinin 30.7%-ni yaşı 15-dən aşağı olanlar, 64.1%-ni yaşı 15-64 arası olanlar, 4.7%-ni isə yaşı 65-dən yuxarı olanlar təşkil etmişdir (6).

1986-cı ilin statistik nəticələri ilə 1996-cı ilin statistik nəticələrinin müqayisəsi yaşı 15-dən aşağı olan əhalinin artım əmsalının mənfi olduğunu göstərir. 15-64 arası yaş qrupunun artım əmsalı 6.8%, 65 və ondan yuxarı qrupun artım əmsalı isə 1.5% təşkil etmişdir. Buna görə də 1996-cı ildə iqtisadi fəaliyyətlə məşğul əhalinin sayı 1986-cı illə müqayisədə çox olmuşdur (3).

**Təhsil səviyyəsi.** 1987-ci ildə əyalət əhalisinin 39.9%-ni yaşı 6-24 olanlar təşkil etmişdir. 1996-cı ildə bu göstərici 43.5% olmuşdur. Bu dövr ərzində təhsil alması zəruri olan 6-24 yaş arası əhalinin artım əmsalı 3.3% olmuşdur. Əsas artım əmsalı 6.1%-lə 11-13 yaş arasında olanlara, ən aşağı artım əmsalı isə 1.7%-lə 18-24 yaş arasında olanlara aiddir (5).

1996-cı ildə Tehranın 6.143.178 nəfərlik 6 yaşdan yuxarı əhalisinin 90.6%-i təhsilli olmuşdur. Bu göstəricinin 96.8%-ni 6-10 yaşlılar, 99.0%-ni 11-14 yaşlılar, 98.0%-ni 15-24 yaşlılar, 88.3%-ni 25-64 yaşlılar, 48.9%-ni isə 65 və ondan yuxarı yaşlılar təşkil etmişdir. Savadlı əhalinin orta göstəricisi 86.2% olmuşdur (7).

**Miqrasiya.** Iranda kənd-şəhər istiqamətli miqrasiya 1961-ci ildə aqrar islahatlar aparıldığı vaxt siyasətçilər, layihələşdirmə mərkəzləri və elmi şuraların diqqətini cəlb etmişdir. İranda kənd-şəhər istiqamətli miqrasiya, əsasən, Tehran əyaləti, xüsusilə də Tehran şəhəri istiqamətində baş verir. 2006-cı il statiatikasına əsasən son on ildə Tehrana 1.438.000 nəfər əhali köçmüş, Tehrandan isə köçənlərin sayı 822.000 nəfər olmuşdur. Əyalətə gələnlər və əyalətdən köçənlərin say fərqi 616.000 nəfər olmuşdur ki, bu da əyalətin əhalisi ilə müqayisədə 4.6% deməkdir. 1986-1996-cı illər ərzində Tehran əyalətinə 1.906.392 nəfər əhali köçmüş, Tehrandan köçənlərin sayı isə 1.518.767 nəfər təşkil etmişdir. Beləliklə, Tehranda miqrasiya fərqi müsbət 387.625 nəfər olmuşdur (9).

Tehran əyalətinə köçüb gəlmiş 1.906.392 immiqrantın 68%-i şəhərlərdə, 31.8%-i isə kəndlərdə məskunlaşmışdır. Tehran əyalətinə köçmüş daxili immiqrantların 1.477.914 nəfərinin əvvəlki məskunlaşdığı yer şəhər, 350851 nəfərin əvvəl məskunlaşdığı yer isə kəndlər olmuşdur. Nəticədə immiqrantların 80.8%-nin əvvəlki məskunlaşdığı ərazi şəhər, 19.2%-nin məskunlaşdığı ərazi isə kənd yerləri olmuşdur. Əhalinin 91.7%-i məntəqələrdə (Tehran, İslamşəhr, Şəhriyar, Kərəc, Veramin) məskunlaşmışdır. Bu dövrdə Tehran əyalətinə köçüb gələnlərin əksəriyyəti Şərqi Azərbaycan əyalətindən olmuşdur (6).

1986-1996-cı illər ərzində Tehran şəhərinə köçüb gələn 567.522 nəfərin 78.7%-ni digər əyalətlərdən köçüb gələnlər, 9.7%-ni əyalətin digər şəhərlərindən köçüb gələnlər, 3.8%-ni Tehran aqlomerasiyasına daxil olan şəhərlərdən köçüb gələnlər, 7.7%-ni isə digər ölkələrdən köçüb gələnlər təşkil etmişdir. İmmiqrantların ən çox hissəsi (584.699 nəfər) Tehran meqapolisində, ən az hissəsi (7.467 nəfər) Şəmiranat şəhərində məskunlaşmışdır. Başqa sözlə, Tehran əyalətini formalaşdıran 9 şəhər arasında Tehran şəhəri 30.7%, Şəhriyar 23.1%, Kərəc 18.9%, Veramin 12.5%, İslamşəhr 9.7%-lə ən çox immiqrant qəbul edən şəhərlər olmuşlar. Şəmiranat 0.4%, Dəmavənd 1.3%-lə ən az immiqrant qəbul edən şəhərlər olmuşlar.

1976-1986-cı illər ərzində Tehrana 1.252.342 nəfər köçmüş, 710.531 nəfər köçüb getmişdir. Aradakı fərq əmsalı 541.811 nəfərlə ifadə olunur. Qeyd olunan dövrdə ölkənin digər əyalətlərindən Tehran əyalətinə gələnlər 39.6%-dən çox olmuşdur.

1976-1986-cı illər ərzində Tehran istiqamətində miqrasiyanın qarşısı alındığı üçün şəhərin əhalisinin artım əmsalı aşağı olmuşdur. 1980-ci illərdə əsas əmtəələrin talon sisteminə keçməsi, ibtidai məktəblərdə qeydiyyat aparılması, qeydiyyat sənədi olmadan yaşayış yerlərinin alınmasına qadağaların qoyulması buraya üz tutan əhalinin Tehran şəhərində deyil, Tehranətrafı ərazilərdə əhalinin məskunlaşmasına şərait yaratdı (8).

Bu səbəbdən də Tehran şəhərinin əhalisi ilə bağlı 1976-1986-cı illər arası dövr araşdırılmaları iki mərhələni əhatə edir: 1976-1981, 1981-1986-cı illər. Birinci beş

illik mərhələdə miqrasiyanın həcmi əvvəlki dövrlə müqayisədə daha böyük olmuşdur. Bu mərhələdə artım 1.9%-dən 2.2%-ə çatmışdır. Lakin 1981-ci ildən başlayaraq bu prosesin həcmi azaldı. Keçən yüz ildə miqrasiyanın həcmi ilk dəfə olaraq təbii artım əmsalından az olmuşdur. Əgər doğulanlar artan əhalinin 64%-ni təşkil edirdisə, immiqrant əhali 36% təşkil edirdi. Müxtəlif dövrdə insanlar Tehranda yaşamaq üçün buraya üz tuturdular. Miqrasiya müxtəlif səbəblərdən yaranır. Xəstəlik, müharibə, təbii fəlakətlər, sel, siyasi, dini problemlər əhalinin bir yerdən başqa yerə köçməsinə səbəb olur. İranda miqrasiyanın əsas səbəbi iqtisadi maraqlar hesab olunur. Tehran əyaləti, xüsusilə Tehran şəhəri istiqamətində baş verən miqrasiyanın səbəbləri müxtəlif dövrlərdə müxtəlif oluşdur:

1. 1961-1971-ci illər Aqrar islahatlar qanununun icrası;

a) Aqrar islahatların aparılması nəticəsində ölkənin kənd əhalisinin əkin sahələri onlardan alındığı, üstəlik sahələri olan əhali də dövlətdən yardım ala bilmədiyi üçün, həmçinin sərmayə olmadığından, əhali şəhərlərə, xüsusilə Tehran şəhərinə üz tutdu.

Aqrar islahatlar öncə ətraf şəhərlərdə sahibkarlıqla məşğul olan subyektlər, islahatlardan sonra iqtisadi və siyasi fəaliyyətlə məşğul olmaq və sənaye sahələrinə yardım etmək üçün Tehran şəhərinə üz tutdular.

b) 50-ci illərdə neftin qiyməti qalxdı. Neftdən gələn gəlirlər Tehranın abadlığına, çənaye, səhiyyə və təhsil mərkəzlərinə sərf olunduğundan, bu, İranın digər əyalət və şəhərlərindən, xüsusilə Tehran şəhəri istiqamətində güclü miqrasiya axınına səbəb oldu (8).

2. 1971-1981-ci illər:

a) 1971-ci il İslam inqilabından sonra dövlətin su, işıq əraziləri havayı paylama və ya çox ucuz qiymətlərlə satışa çıxarmaqla bağlı vədləri şəhərlərə, xüsusilə Tehran istiqamətində miqrasiya səviyyəsinin artmasına səbəb oldu.

b) İran-İraq müharibəsi baş verdiyi zaman əhali müharibə zonalarından daha təhlükəsiz ərazilərə köçməyə başladı. Bu dövrdə Tehran paytaxt kimi daha geniş imkanlara malik olduğundan, əhali daha çox Tehrana üz tutdu (8).

Tehrana gələn immiqrantlar burada təhsil sahəsi, xidmət mərkəzləri və s. Sektorlarda çalışırdılar. Müharibə bitdikdən sonra sözü gedən əhali öz yerlərinə qayıtmaqdansa şəhərdə qalmağı üstün tutdular.

Müharibə bitdikdən sonra ölkədə siyasi və iqtisadi təhlükəsizlik hökm sürdü, sənaye, xidmət, tikinti və s. sahələr inkişaf etdi. Bu dövr immiqrantları iki hissəyə bölünürdü.

1. İmmiqrantlar tikinti sənayesinə yatırım etmək məqsədilə şəhərə üz tuturdular. Tehranda mənzillərin qiyməti baha olduğundan, sərmayəçilər digər şəhərlərə köməkdənsə Tehrana gəlməyi üstün tuturdular.
2. Təhsilini Tehranda və ya digər şəhərlərdə başa vurmuş məzunlar daha yaxşı fəaliyyətlə məşğul olmaq üçün Tehranda işləməyə önəm verirdilər. Tehranda müxtəlif tipli dövlət və özəl şirkətlər çox olduğundan, işçi qüvvəsi, əsasən, Tehrana axışırdı (9).

**Tehranda əhalinin məskunlaşma vəziyyəti.** Keçən 60 ildə sosial-iqtisadi dəyişikliklərlə bağlı İranda gecəqondularda yaşayan əhalinin sayı artmışdır. 1941-ci ilə qədər İranın kənd və şəhərlərində iqtisadi fəaliyyət sahələri, demək olar ki, tarazlıq təşkil edirdi. 1941-1953-cü illərdə kəndlərdən şəhərlərə miqrasiya prosesi başladı. 1943-cü ildən neftdən gələn gəlirlərin şəhər infrastrukturlarına ayrılması, sənayenin

inkişaf etdirilməsi və kənd təsərrüfatı sahələrinin ətraf ərazilərdə yerləşməsi kənd əhalisinin daha qaynar fəaliyyətli ərazilərə köçməsinə səbəb oldu. Başqa sözlə, 1960-cı ildən başlayaraq kənd təsərrüfatı sahələrinin rolunun azaldılması, şəhərlərdə sənaye fəaliyyətinin genişləndirilməsi və inkişaf etdirilməsi kənd əhalisinin şəhərlərə, xüsusilə Tehrana köçməsinə gətirib çıxardı. Tehran artıq 1978-ci ildən sonra daha çox immiqrant qəbul etməyə başlamışdı.

1956-cı ildən 2006-cı ilə qədər Tehranın təbii artımı 2.7%-dən 1.1%-ə qədər azalmışdı. Bu azalmaya səbəb fəaliyyət mərkəzlərinin Tehranətrafı ərazilərdə yerləşməsi, qiymətlərin qalxması olmuşdur. Tehranda məskunlaşma dövrlərini üç prinsip üzrə təsnif etmək olar: əhalinin mərkəzləşmiş şəkildə məskunlaşması, mərkəzləşmə olmadan məskunlaşması və son onillikdə dağınıq formada məskunlaşması.

1976-1987-cı illər ərzində məntəqənin 4.4% artım əmsalında 1.7%-i miqrasiya hesabına baş verirdisə, 1986-1996-cı illər ərzində bu faiz 0.4%-ə enmişdir. Yəni 2.7%-in 0.4%-ni təşkil etmişdir. Bu da o deməkdir ki, artım əsasən təbii olmuşdur.

Sonralar region üzrə əhali cəlb etməsində Tehranın payı azalmışdır. Əgər 1966-1976-cı illərdə bu cəlbetmə 82% idisə, 1976-1986-cı illərdə bu göstərici 29%-ə enmişdir. Bu da özünü mərkəzləşməmiş məskunlaşmanın təzahür forması kimi göstərir.

Tehranətrafı ərazilər qeyri-rəsmi olaraq inkişaf etdirilir. Ətraf ərazilərin əhalisi getdikcə daha da çoxalmağa başlayır. Bu artım 1976-cı ildə 5% idisə, 1986-cı ildə 11%, 1996-cı ildə 19% olmuşdur. 1996-cı ildə məntəqənin kiçik şəhər və qəsəbələrində əhali 1980 nəfər artmışdır. Məntəqədə qeyri-rəsmi məskunlaşma əmsalı getdikcə artmaqdadır.

## ƏDƏBİYYAT


1. Etimadüssəltənə Məhəmmədhəsən xan. Miratülbüldan. Tərcüməçilər: Əbdülhəsən Nəvai və Mihaşim Mühəddis. I c., Tehran Universiteti, 1987, 25 s.
2. Aştiyani İqbal Abbas və Pirniya Həsən. İranın tarixi dövrləri. Yarandığı dövrdən Qacarların süqutuna qədər. Tərcüməçi: Parizi Bastani. Tehran-Xəyyam nəşriyyatı, 1992, 105 s.
3. Tehran bələdiyyəsi. Tehran şəhərinin əhali statistikası. Ümumrespublika üzrə II siyahıyaalma. 1993, s.5.
4. Təkmil Humayun Nasir. İran haqqında nə bilirəm? Nil nəşriyyatı; I çap; 2003, 99 s.
5. Xoşkəlam Pərviz. Tehran əyaləti istiqamətində miqrasiyanın səbəbləri. Tehran əyalətinin İdarəetmə və layihələşdirmə idarəsi. I nəşr, 1988, s.116.
6. Davudpur Zöhrə. Tehran şəhəri- Avtomobil dayanacaqları. İranın şəhərsalma və memarlıq sahəsi üzrə tədqiqatlar və araşdırmalar mərkəzi. I nəşr, 2005, s.14.
7. Səidi Rizvani Nəvid. 20 illik bir dövr üzrə şəhərsalma və məskunlaşma (1941-1965). Coğrafi tədqiqatlar jurnalı. № 25, 1992, s.56.
8. Əhali və daşınmaz əmlakın ümumi statistikası- 2006. İran statistika mərkəzi. 2007, s.6.
9. Tehran və Tehranətrafı şəhərlərin ümumi layihəsi. Ekoloji araşdırmalar. Fəsil 5. İran şəhərsalma və memarlıq sahəsi üzrə araşdırmalar mərkəzi. I nəşr, 2000, s. 72.


## ДИНАМИКА НАСЕЛЕНИЯ ГОРОДА ТЕГЕРАН

**В.А.ЭФЕНДИЕВ, РАГИМ РЕЗАИ**

### РЕЗЮМЕ

В статье анализируется динамика численности самой крупной агломерации Ирана-города Тегерана. Численность города растет быстрыми темпами, что связано с его сто-

личной функцией. Уже к началу XXI века она превысила 11млн. человек. Рост населения в Тегеране привел к слиянию соседних городов и возникновению агломерации в составе 9 городов. Наравне с динамикой рассматриваются процессы миграции и половозрастная структура населения города.

## THE DYNAMICS OF TEHERAN`S POPULATION

**V.A.AFANDIYEV, RAHIM REZAI**

### SUMMARY

The dinamics of the large - scale agglomeration of Teheran, Iran is analyzed in this paper.

The population of the city is growing rapidly which is due to its capital function. At the beginning of the XXI century the population of Teheran exceeded 11 mln. people. The growth of Teheran`s population led to the merging of neighbouring areas and agglomeration of 9 towns. Alongside with the dynamics, the processes of migration and sex-age structure of Teheran`s population are considered in the article.